**Azərbaycanın İstanbuldakı Baş Konsulluğu, İstanbul Konsullar Korpusu və COP29 Prezidentliyin birgə təşkilatçılığı ilə İstanbulda "COP29 və COP30 arasında körpü: Diplomatiya, fəaliyyət və iqlim üzrə yol xəritəsi" mövzusunda konfrans və panel iclas keçirilib. Tədbir çərçivəsində COP29 zamanı qəbul edilən qərarlar və COP30-a hazırlıqla birgə iqlim dəyişikliyinə dair məsələlər müzakirə edilib.**





İstanbul

# COP29 ilə COP30-u birləşdirən diplomatiya, fəaliyyət və iqlim yolu



İslasda Baş konsul Nərminə Mustafayeva, BMT-nin Türkiyədəki rezident nümayəndəsi Babatunde A.Ahonsi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Baş katibi Lazar Komanesku, inkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Baş katibi İsiaka Abdulqadir İmam, Azərbaycanın xarici işlər nazirinin müavini, COP29-un baş danışıqçısı Yalçın Rəfiyev, Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişmələri nazirinin müavini, COP29 üzrə baş danışıqçı Fatma Varank, Enerji Səmərəliliyi Assosiasiyasının İdarə Heyətinin üzvü, "Vat enerji" şirkətinin baş direktoru Altuğ Karataş, İstanbulda akkreditə olunan beynəlxalq təşkilatlar, baş konsulluqlar və beynəlxalq media nümayəndələri iştirak ediblər.

Konfransın açılış mərasimində çıxış edən Nərminə Mustafayeva tədbirin COP29-un yekunlarının müzakirəsi və bu istiqamətdə gələcək fəaliyyətlər baxımından əhəmiyyətini vurğulayıb.

BMT-nin Türkiyədəki daimi nümayəndəsi Babatunde A.Ahonsi Azərbaycanda COP29-un uğurla keçirildiyini, burada qəbul edilən qərarların vacib olduğunu qeyd edib və iqlim problemlərinin həllini ortaq gələcəyimizin formalaşdırılması baxımından ən mühüm sahələrdən biri kimi vurğulayıb.

Ötən il COP tədbirləri baxımından Azərbaycanın sədrliyi ilə əldə edilən uğurlu nəticələrə diqqət çəkən natiqlər, COP29-un sadəcə danışıqlar platforması deyil, həm də dünyanın gələcəyinə ədalətli və əhatəli həll yanaşması olduğunu diqqətə çatdırıblar.

Daha sonra Boğaziçi Universitetinin professoru Gürkan Kumbaroğlunun moderatorluğu ilə Yalçın Rəfiyev, Fatma Varank və Altuğ Karataşın iştirakı ilə panel iclas keçirilib. İclasda COP29-un yekunları və COP30-un hədəfləri müzakirə olunub. Paneldə təqdimatla çıxış edən Yalçın Rəfiyev Azərbaycanın COP29-la bağlı hədəfləri və əldə olunan nəticələr barədə danışıb. O, COP29-da qəbul edilən qərarların tarixi əhəmiyyət kəsb etdiyini, xüsusilə iqlim maliyyəsinə dair nəticənin BMT sistemində danışıqlar yolu ilə razılaşdırılan ən böyük iqlim maliyyəsi qərarı olduğunu və bunun daha əvvəlki maliyyə hədəfini üç dəfə artırdığını bildirib. Hazırda COP29-dan gələn mandat əsasında Azərbaycan və Braziliya Sədrlikləri tərəfindən iqlim maliyyəsinin 1,3 trilyona qaldırılması ilə bağlı "Bakıdan Beleme Yol Xəritəsi"nə dair hesabatın hazırlanması üzərində iş aparıldığı və həmin hesabatın COP30-da təqdim edilməsinin nəzərdə tutulduğunu qeyd edib.

Y.Rəfiyev vurğulayıb ki, COP29-un yekununda qəbul edilən qərara müvafiq olaraq, zəngin ölkələr iqlim dəyişmələrinin qarşısını almaq üçün inkişaf etməkdə olan ölkələrə hər il rekord məbləğdə vəsait - 300 milyard ABŞ dolları verəcəklərini öhdəlik götürüblər. Bu qərar 2035-ci ilə qədər qüvvədədir. COP29-a qədər bu məbləğ 100 milyard ABŞ dolları təşkil edirdi və heç də əlverişli şərtlərlə verilmirdi. COP29-da yeni nəticələr əldə olundu və ayrılan məbləğ indiyədək baş tutan COP-ların tarixində rekord məbləğdir.

Nazir müavini Paris Sazişi qəbul edildikdən keçən 10 il ərzində onun 6-cı maddəsi üzrə nəticəsiz qalan danışıqların məhz Bakıda Azərbaycanın liderliyi ilə razılaşdırılması və beləliklə, karbon ticarətinə dair mexanizmin fəaliyyətə başlamasının digər mühüm tarixi hadisə olduğunu bildirib.

O, həmçinin, Türkiyənin COP31-ə ev sahibliyi etməyə layiqli namizəd olduğunu vurğulayıb və bu istiqamətdə qardaş dövlətə uğurlar arzulayıb. Növbəti COP-a ev sahibliyi haqqının Türkiyə tərəfindən qazanılacağı təqdirdə Azərbaycanın özünün uğurlu təcrübəsini qardaş dövlətdən olan həmkarları ilə paylaşmağa və zəruri dəstəyi verməyə hazır olduğunu qeyd edib.

Danışıqlar istiqaməti ilə yanaşı, COP29 Sədrinin Fəaliyyət Planı çərçivəsində mühüm təşəbbüslərin elan edildiyi, onlara qoşulan dövlət və qeyri-dövlət aktorlarının sayının mütəmadi olaraq artdığı diqqətə çatdırılıb.

Fatma Varank isə çıxışında COP29-da Azərbaycanın çox böyük uğur əldə etdiyini deyib: "Yaxından iştirak edən bir ölkə olaraq Azərbaycanın səssiz, lakin çox təsirli bir diplomatiya ilə mükəmməl qərarlar verdiyini müşahidə etdik. Bu münasibətlə Azərbaycanı təbrik edirəm. Tədbirdə inkişaf etmiş və inkişafda olan ölkələrlə yanaşı, bütün iştirakçılara, eləcə də Türkiyəyə verilən dəstəklərə görə də təşəkkürümü bildirirəm. Təbii ki, əldə olunan nəticələr dünyadakı bütün problemləri həll etməyə qadir deyil, lakin COP29-la iqlim məsələləri baxımından böyük bir məsafə qət etdiyimizə inanırıq".

O qeyd edib ki, Türkiyə olaraq COP31-ə sədrlik uğrunda mübarizəmizi qətiyyətlə davam etdiririk: "İqlimlə bağlı keçirilən toplantılarda iştirakla yanaşı, səfirliklərimiz vasitəsilə ölkələrin nazirlikləri ilə təmaslar qururuq. Təbii ki, bu fəaliyyətlər son altı ayda daha da intensivləşib. Dünyadakı bir çox ölkələr də Türkiyəyə dəstək verirlər. Biz bu istiqamətdə baxışımızı əks etdirən sənədi ortaya qoyduq. Orada COP31-lə bağlı hədəflərimiz, əsas müzakirə mövzuları və başlıqları müəyyənləşdirmişik, çox müsbət rəylər alırıq. Təbii ki, bizimlə yanaşı, Avstraliya da namizəd ölkədir və onlar da prosesi davam etdirirlər. Bu istiqamətdə ölkələrimiz arasında sıx görüşlər keçirilir. Danışıqlarımız davam edir və təbii ki, son qərar COP30-da veriləcək".

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin Türkiyə üzrə müxbiri.**